# IX "QAÇAQ ASLAN" - OBRAZIN YADDAŞ GÜCÜ

### 3. Vətən yolunda qan gölləri

Ulduz Qasımın "Qaçaq Aslan" romanı üzərində yarımçıq qalmış düşüncələrimi davam etdirərkən yenə gözlərimin önünə Cənubi Azərbaycanın indiki mənzərəsi gəlir. Ərdəbil, Mərənd, Zəncan, Xoy, Marağa... Zülfün gəlməz darağa. Çünki pərişandı vətənin saçları. İnsanların 10 illər boyu varlığına yığılmış istəklər, arzular etiraz dalğaları kimi kükrəməkdədir. Artıq hər kəs yaxşı başa düşür ki, antiinsani molla rejimi ilə yollar ayrılmalıdır.

Ayrılan yolları İranın insan qanına susayan rejimi asanlıqla vermir bu yola çıxanlara. Artıq hər kəs anlamaqdadır ki, insanın canından, qanından öncə vətəndir. Öncə xalqın dilidir. Öncə xalqın mənəvi varlığıdır. Şəhriyarı, Səhəndi, Sönməzi... təbiətən milli kimliyini sözü ilə öyən neçə-neçə sənətkarı yaddaşımızda təzədən oyadır, onlarla birləşirik.

Sanki Əlirza Nabdil Oktay edamdam qurtulub təzədən millətin önünə gəlir, əlini Savalana uzadır, Heydərbabaya, Eynal-Zeynal dağına yön tutur. Var səsi ilə hayqırır; "məni sən şair elədin, vətən".

Düşünürəm ki, xalqın istək və arzularını yazıya gətirən hər bir sənətkarın özü ən müqəddəs duyğuların carçısıdır və demək, Ulduz Qasımı da "Qaçaq Aslan" romanını yazmağa vadar edən elə bu vətən çağırışlarıdır.

Söhrab Tahir, Azər-Azər bir vaxt danışırdı ki, bizi 1945-ci ildə Sovetlərə göndərdilər ki, oxuyaq, ali təhsil alaq, daha uca ideallarla silahlanaq və qayıdıb vətənin bayrağını daha ucalara qaldıraq. Söhrab Tahirin istək və arzularını hələ onun sağlığında "Söhrab Tahirə məktub" adlı qəsidə-poemamda qələmə almışdım. O vaxt Söhrab Tahirin Cənubi Azərbaycan həyatından bəhs edən romanlarını, povestlərini "Kredo" qəzertində dərc edirdik Sıx yaradıcılıq əlaqəmiz vardı. Biz ona əmi deyirdik, Söhrab əmi. Bəli, Söhrab əminin yanağında bir xal vardı. Mənə elə gəlirdi ki, bu xal bizim ideallarımızın şairin yanağına, gözünün altına hopmuş rəsmidir. Qəsidə-poemanı da belə bir epiqrafla başlamışdım: "Söhrab Tahirin yanağında bir xal var, bütöv Azərbaycanın xəritəsinə bənzəyir". İndi "Qaçaq Aslan"ın səhifələri arasında irəlilədikcə həmin poemanın da bir çox odlu misraları bu sətirlərin arasında özünə yer istəyir:

Söhrab Tahir, həsrətlərin dağ oldumu öz  yağında,  
Gənclik getdi, dərd içində o çağın da, bu çağın da.

Tanrı çəkmiş qara xaldı Azərbaycan xəritəsi  
Bütövlüyün vüsalına çatıb şair-yanağında.

Alnındakı qırışları Həştadsərdən keçən yoldu,  
Qoca qartal yol gözləyir, həsrət çəkir Bəzz dağında.

Zaman ilə cəngə çıxıb yorulmayır, usanmayır,  
Tufanlara tapşırdığı taleyinin sorağında.

Söhrab Tahir, bu dünyanın üzü bərkdi, gözlə hələ  
Bir gün gələr işıq yanar, anaların çırağında.

Ərk qalası incik düşüb, neçə vaxtdı Fədailər,  
Harda qaldı, gəlib çıxmır ilin, günün bu çağında.

Səttar xanın, Bağır xanın sümükləri sızıldayır,  
Arzuları şaxta vurdu, qış dondurdu budağında.

Söhrab Tahir, namərd dünya od qaladı ürəyində,  
Dağ olmayan dərdlərinin yağı yandı cızdağında.

Behrəngini boğan sular boz-bulanıq axır yenə,  
Diri gözlü can üstədir o dağın da, bu dağın da.

Min ildir ki, dərd daşıyır sınıq düşüb Xudafərin,  
Dərd daşıyır, ələm çəkir o tağın da, bu tağın da.

Söhrab Tahir, əllərini yumruq elə açma hələ,  
Nahaq qanım göl-göl olub Xan Arazın qırağında.

Şair hələ çox gəncikən, hələ 17 yaşı da olmamış hərəkata qoşulmuşdu. Özünün şəxsi vətən duyğuları ilə nəfəs alan istəkləri ilə Pişəvərinin yanına qədər gedib çıxmışdı. Gənc Söhrab Pişəvərinin möhürdarı olmuşdu. O deyirdi ki, möhürü balaca kisəyə qoyub boynumdan asırdım. Bu hadisənin özü göstərir ki, əslində ötən əsrin 40-cı illərində xalq böyüklü-kiçikli, qocalı-cavanlı... bir sözlə, başdan-başa vətən naminə səfərbər olmuşdu.

"Qaçaq Aslan" romanının obrazların taleyi ilə qovuşan səhifələri vətənin həmin günlərdəki ağrılı-acılı tale yoluna işıq tutur. Əsərin məntiqi olaraq birinci hissəsi biz artıq qeyd etdik ki, inqilabçı Fərmanın həlak olması ilə qurtarır.

Fərmanın əqidə yolunda, vətən yolunda mübarizəsi onun canını verməsi ilə təsdiqlənir.

Əlbəttə, vətən əzizdi, can vətəndən əziz ola bilməz. Əgər can vətəndən əziz olsaydı, onda insanlar şah rejiminə də, indiki molla rejiminə də baş əyib bütün əzablara, təcavüzlərə dözməli olardı. Fərmanın ömür-gün yoldaşı Zərnişanın fədakarlığı, dözümü, qeyrəti onu daha mətin olmağa, başını dik tutmağa çağırır. Biz hiss edirik ki, o bütün varlığı ilə ömür-gün yoldaşının mübarizəsini davam etdirməyə səfərbər olub. Ancaq buna baxmayaraq, onun iztirabları da əsərdə ürək göynədən məqamlarla yazıya köçürülüb. Birinci, ailədə ana sarsılır. Əsərdə "Şəmayil xala" adıyla təqdim olunan ana obrazı elə həm də vətənin, yurdun obrazıdır. Axı vətən də, yurd da verdiyi qurbanlarla birgə özü də zədələnir, özü də yaralanır.

Bu yerdə Zərnişanın iztirablarının üzərindən sükutla keçmək olmur. Onun oğul dərdinə dözməyən anaya, ataya - Şəmayil xalaya, Abbas kişiyə xəyalən müraciətləri çox sarsıdıcıdır: "Bəs siz köçmək istəyirsinizsə mən neyləyim? Məni heç düşündünüz, körpələrimi düşündünüz? Bu yaşımda mən hara gedərəm, kimə qısılaram bu uşaqlarla? Onların qarınlarını nəylə doyuraram, ehtiyaclarını necə ödəyərəm? Nə asandı köçüb getmək... Elə bilirsiniz bu dünyanın Fərmandan sonra mənim üçün bir əhəmiyyəti var? Məni də bundan sonra övladlarıma olan




məhəbbətim yaşadacaq. Allahım, bu yaşlı insanlara dözüm ver. Övlad acısı ağır dərddi, çətin özlərinə gələrlər". Zərnişan yaxşı başa düşür ki, o gələcək həyatını körpə balaları ilə baş-başa yaşayacaq. Onun özü də balalarına baxdıqca həyatının necə ağır keçəcəyini yaxşı təsəvvür edir.

Bütün bu sarsıntılar, hətta Fərmanın atasını, anasını itirəndən sonra belə Zərnişanı azadlıq yolunda mübarizədən döndərə bilmir. İnqilabın ən qanlı günlərində Aslan yaralanır. Özündən başqa da daha ağır bir yaralını güllə altından çıxarmağa heyi qalmayıb. Və bu zaman o, tanımadığı adamların yaxınlaşıb kömək istədiyini görür. Və məlum olur ki, həmin adamlar Zərnişanın başçılığı ilə səfərbər olunmuş qadınlardır. Paltarlarını dəyişiblər, kişi libasında gəliblər döyüş meydanına. Həmin məqamlarda Zərnişanın dediyi sözlər nəinki bir zaman üçün, vətən tarixinin bütün zamanları üçün unudulmayacaq dərs qanunudur. "Biz necə sakit qala bilərdik? Biz ona görə gəldik ki, bəlkə kiməsə köməyimiz dəydi". Bu sözlərin arxasında dayanan həqiqət budur ki, qanında, canında milli hiss olan hər kəs vətənin çağırışına cavab verməlidir. Elə bu gün Azərbaycanın - Güneydə baş verən hadisələrin fonunda qadınların necə fəal olduğunu görmək heç də çətin deyil.

Azərbaycan qadınları vətənə vətəndaş olmaqla bərabər tuturlar analıq haqlarını. Onu da deyim ki, Ulduz Qasım əvvəlki əsərlərində olduğu kimi "Qaçaq Aslan" romanında da müqəddəs ana kultuna sadiq qalır. Anaların övladları üçün fədakarlıqları, hətta onların mübarizələrinə mənəvi dayaq olmaları göstərir ki, Aslanlar, Fərmanlar, Rəfilər, Məhəmmədlər kimi oğullar yetirən vətən həm də elə həmin analardır.

Nəhayət, İranın demək olar ki, bütün şəhərlərində alovlanan etiraz mitinqləri, nümayişlər ən qanlı mərhələsinə çatır. Çünki artıq Məhəmmədlərin, usta Nadirlərin, Fərmanların, Aslanların apardığı mübarizələr Cənubi Azərbaycanda müvəqqəti hökumətin qurulması ilə başa çatmışdı. Xalq artıq azadlığın, öz haqqına sahib olmağın nə demək olduğunu kifayət qədər aydın başa düşmüşdü. Əsər müəllifin ədəbi qəhrəmanlarının təsvirləri fonunda onların mübarizliyi ilə yaranmış milli hökumətin uğurlarına da səhifələr ayırır. Burada bəzi məqamlara, müəllifin öz dəsti-xətti ilə yazdıqlarına əsasən diqqət yetirmək daha yaxşı olardı: "Məşhəddə olan nümayişdən sonra ruhlanan hərəkat üzvləri tezliklə inqilaba başlamaq üçün lazımi tədbirlər görürdülər. Qulam Yahyanın rəhbərliyi ilə konfransın proqramı və görüləcək işlərin mətnləri müzakirə edilirdi. Proqramda Azərbyacan dilinin ikinci dövlət dili kimi qəbul olunması, torpaqların kəndlilərə verilməsi, insanların rifahının yaxşılaşdırılması məsələləri əsas yer tuturdu. 1945-ci ildə Azərbaycan Muxtariyyəti elan edildi. Əlli min hektar torpaq kəndlilərə verildi. İnsanların sosial rifahı yaxşılaşdı. Bundan sonra İrandakı bütün təşkilatlar Tudə partiyasıyla birləşdirildi. Rəhbərlərin birlikdə hərəkət etməsi İran inqilabına gətirib çıxardı. 1946-cı ildə Təbrizdə başlanan inqilab tezliklə Tehrana, Ərdəbilə, Mazandara, Gilana, Qəzvinə, Həmədana və başqa yerlərdə alovlanmağa başladı. İlk günlərdən Təbrizə gedən Aslanla Məhəmməd inqilabi proseslərin tam ortasında idilər. Silahın azlığı inqilabçılara bərk mane olurdu. Tehranda Stalinlə hərəkat başçılarının gizli görüşü zamanı onlara silah söz verilsə də, Sovetlər verdiyi sözü tutmadı. Sovetlərin dəstəyi kəsiləndən sonra hərəkat çökməyə başladı. Şahın ordusuyla bütün şəhərlərdəki hərəkatları bir-bir məhv etməyə başladı. Bununla belə, insanlar yenə də ayaqda idilər. İran vacib tarixi günlərini yaşayırdı". Bu parçada tarixi taleyini həll etmək istəyən xalqa qarşı xarici qüvvələrin ziddiyyətli mövqeləri də görünür. İndi hamıya yaxşı məlumdur ki, Sovetlər Stalinin şəxsində Güney Azərbaycanın mübarizəsinə rəvac versə də, sonra xəyanətkarcasına geri çəkilir. Nə isə... Əslində qətiyyən unudulmayacaq səhifələr yaddaşda elə izlər buraxır ki, oxucu çox asanlıqla bu izlərin apardığı cığırlarla həmin zamanın qan göllərindən keçməli olur.

Əsərdə bir məqam da müəllifin həmişə diqqətində olur. Hərəkat üzvləri, Azərbaycanın azadlığı uğrunda gizlin və aşkar mübarizəyə qalxmış inqilabçılar nə qədər yetkindirlər. Onlar döyüş meydanlarında itirdikləri hər bir hərəkat üzvünün ağırısını yaşayır, onların unudulmaması üçün bütün imkanlarını əsirgəmirlər. Əslində bütün hərəkatların gələcək nəsillərə varisliklə ötürə biləcəyi ən üstün keyfiyyətlərdən biri də vətən uğrunda savaşanların adlarının unudulmamasıdır. Onların ailələrinə, övladlarına qayğı göstərilməsinin özü də elə vətənə xidmətin ən yaxşı nümunəsidir.

Əsərin oxunaqlı olması üçün insan hisslərinin təsvirlərinə də müəllif kifayət qədər yer ayırır. Qadın sədaqəti, sonsuz məhəbbət və sevgi duyğuları ayrı-ayrı obrazların taleyində xüsusi maraq kəsb edir. Müəllif bu münasibətləri də stereotip şəklində vermir. Müəyyən həyat detalları ilə obrazlar fərdiləşir və oxucu yaddaşına yazılır.

*(Davamı 5-ci səhifədə)*

# IX "QAÇAQ ASLAN" - OBRAZIN YADDAŞ GÜCÜ

*(Əvvəli 4-cü səhifədə)*

Aslanın qardaşı Məhərrəmin sevgisi uğrunda apardığı mübarizə, onun mərdliyi, qorxmazlığı sanki məhəbbət dastanlarının səhifələri kimi yazıya gətirilib.

Aslanın həyat qurması, evlənməsi məsələsi də səmimi müşahidələrlə qələmə alınıb. Ancaq həyat göstərir ki, heç bir-birini görmədən evlənmiş Aslan və Həmayil həyatın sonrakı faciəli dönəmlərində bir-birinə nə qədər sədaqətli oldular. Amma Məhərrəmin böyük sevgi mübarizəsi ilə evləndiyi qızın xarakterində ziddiyyətli tərəflər üzə çıxır. Bu da onu göstərir ki, qadınlar nə qədər qapalı mühitdə saxlanırsa, bir o qədər məhdud dünyagörüşü içərisində qalırlar.

Bütün hallarda əsər inqilabi mübarizə yolunu tərənnüm edir. Güney Azərbaycanın uğurlarına dözə bilməyən qəddar irtica bütün gücünü toplayır. Hətta beynəlxalq qüvvələrin də ziddiyyətli münasibətləri sayəsində onlar azadlıq mübarizlərini boğmaq üçün qəti addımlar atırlar. Bir daha Aslanın timsalında vətən savaşının həmin ziddiyyətli məqamlarına diqqət etmək, o qanlı savaş günlərini xatırlamaq üçün çox dəyərli, psixoloji mənbədir: "Həmin gündən Aslan hərəkatın gizli işində daha cürətlə çalışmağa başladı. Mazandarandan, Həmədandan, hətta Təbrizdən onun adını eşidib gələnlər vardı. İnqilabçılar yenə dinc durmurdular. Altdan-altdan özlərinə tərəfdar toplamaqla, xalq arasında təbliğat aparmaqla məşğul idilər. Kimlərlə vuruşduğunu, hansı qəhrəmanlıqları etdiyini öyrəndikcə, insanlar Aslana daha çox etibar edir, onu qorumaq üçün əllərindən gələni əsirgəmirdilər. Sovetlər Birliyi ilə anlaşmanı pozub daha çox Amerika ilə birgə fəaliyyət göstərən şah ordusunda və gizli xidmət sistemində indi daha çox amerikalı və ingilis mütəxəssisləri məsləhətçi olaraq çalışırdılar. Bu da şah tərəfarlarının daha da güclədiyindən xəbər verirdi. 1947-ci ildə iyirmi mindən çox inqilabçını həbslərə atmış, asmış və ya hamının gözü qarşısında güllələmişdilər. Bundan sonrakı illərdə də şah tərəfdarları hamını nəzarətdə saxlamağa çalışırdı. Aslan hərəkat üzvlərini həmişə ayrı-ayrı xəbərdar edir, hamını ehtiyatlı olmağa çağırırdı. Kimsənin nəzarətə götürülməməsinə diqqət edirdi. Ailə həyatı qurduqdan sonrasa özü kimilərini daha diqqətlə qoruyurdu. Bilirdi ki, onları evdə dörd gözlə gözləyənləri var. Evə gec gələndə başını qaldırıb Hamayılın üzünə baxmırdı. Onu gecəyə qədər tək qoyduğu üçün utanırdı. Həyat yoldaşısa onu həmişə gülərüzlə qarşılayır, xoş sözlər deyirdi. Aslan necə minnətdarlıq edəcəyini bilmirdi. Təəssüf hissiylə, sevinc hissi bir-birinə qarışırdı". Bir sözlə, tarix özünün qəti hökmünü vermişdi. Özü də haqsız hökmünü. Günahsız insanların ölümü ilə müşayiət olunacaq hökmünü. Həmin günlərdə Təbriz küçələrinə Azərbaycanın digər şəhərlərinə doğru gedən yollara dar ağacları əkilmişdi.

Ulu öndər Heydər Əliyev haqqında onu müşayiət edənlərin təəssüratlarını burada xatırlatmaq olar. Heydər Əliyev İrana səfər edir. Görmək istədiyi yerlər sırasında birinci Təbrizin adını çəkir. Ancaq İranın dini lideri onun Təbrizə getməsinə razı olmur. Açıqaçığına bildirir ki, Təbriz inqilablar şəhəridir. Zənnimcə, bunun nə demək olduğunu biz yaxşı bildiyimiz kimi fars şovinizminin liderləri də kifayət qədər anlamaq gücündədirlər. Onlar Təbrizdən həmişə ehtiyatlanıblar.



Güney Azərbaycanın fədailəri son sığınacaqlarında - Ərş qalasında da axıra qədər mətanətlə döyüşüblər.

Biz şərti olaraq əsəri 3 hissədə təsəvvür edirik. Bəli, əsərin ikinci hissəsi də azadlıq uğrunda mübarizənin qan göllərindən keçən yolunun müvəqqəti də olsa, məğlubiyyət məqamı ilə başa çatır.

Aslanın taleyi necə olacaq? Hətta 50-ci illərin ortalarına qədər Aslanın mübarizə yolundan çəkilməməsi, əqidəsi uğrunda vuruşması onun həyatına hansı rəngləri bəxş edəcək - bu barədə bir qədər sonra.

***17.01.2023***